# AZƏRBAYCANDA UŞAQ MƏTBUATININ YARANMASI

LALƏ P.İSMAYILOVA

XIX əsrin sonlarında fədakar ziyalı, publisist Həsən bəy Zərdabi Azərbaycan milli mətbuatının təməlini qoymaqla ictimai fikir tarixində maarifçilik ideyalarının təşəkkülünə də şərait yaratdı. Bu dövrdə maarifçilərin başlıca məqsədi cəmiyyətin tərəqqisini ilk növbədə elmə istiqamətləndirmək, cəmiyyət daxilində elm və maarifi yaymaq idi. Bunun vasitəsilə də xalqı ağıl və şüurdan kənarda mövcud olan təsəvvürlərdən, xüsusən də avamlıq və dini fanatizmin təsirindən xilas etməyə çalışırdılar. O dövrün Azərbaycan ziyalısının mübarizəsi yeni məktəbin inkişafına da yönəlmişdi. Qori seminariyasını bitirən ziyalılar Azərbaycanda məktəb işini yeni bir xəttə salmaq üçün böyük səy göstərirdilər. Bu dövrdən etibarən Azərbaycanda mədəni-maarif və məktəb işləri xeyli canlanmağa başladı. Bakı, Gəncə, Şuşa, Şəki, Şamaxı, Salyan, Lənkəran, Quba, Naxçıvan və Azərbaycanın digər şəhərlərində ibtidai məktəblər açıldı. Azərbaycan əyalətlərində yeni üsullu məktəblərin fəaliyyətə başlaması maarifpərvər ziyalılar qarşısında bu məktəblər üçün dərslik və kitablar hazırlamaq, milli uşaq mətbuatını formalaşdırmaq kimi zəruri məsələləri də qoyurdu. Hətta 1906-cı ildə Azərbaycan müəllimlərinin birinci qurultayında da ziyalılar, maarif xadimləri təkmilləşdirilmiş əlifbanın, yeni dərsliklərin tərtib edilməsi, mətbuatın yaranması məsələlərini də müzakirə etmişdilər. Əsrin əvvəllərindən başlayaraq yeni məktəb uğrunda mübarizənin güclənməsi Rəşidbəy Əfəndizadənin «Bəsirətül-ətfal» (1901), Mahmudbəy Mahmudbəyovun «Türk əlifbası» (1907), «Yeni məktəb» (1909), bir neçə ziyalının birgə hazırladığı və uzun müddət mükəmməl dərs vəsaiti kimi istifadə olunan «Birinci il» (1909), «İkinci il» (1908) dərslik və məcmuələrinin çap olunması ilə nəticələndi. Dövrün maarifpərvər yazıçıları, pedaqoq və ziyalıları ölkədə mədəniyyətin inkişaf etməsi, xalqın maariflənməsi, yeni nəslin elm və biliklərə yiyələnməsinə görə məktəblərin açılması, dərsliklərin hazırlanması prosesində ölkənin hər yerində yayılan qəzet və jurnallardan istifadə edirdilər. Hətta maarifçiliyi daha geniş yaymaq üçün, həmçinin yaranmaqda olan milli uşaq ədəbiyyatının ən yaxşı nümunələrini toplamaq üçün xüsusi mətbuat orqanlarına ehtiyac yaranırdı. Buna görə də təsadüfi deyil ki, bu ehtiyacı görən o dövrün ziyalıları XIX əsrin sonlarından başlayaraq xüsusi uşaq qəzet və jurnalları nəşr etməyə təşəbbüs göstərmişdilər. Ziyalıların məqsədi həmin mətbu orqanlarında yeni yaranan ədəbiyyat nümunələrini yeniyetmələrə çatdırmaq, təlim-tərbiyə, məktəb-maarif məsələlərini işıqlandırmaqla yanaşı, Zaqafqaziyada,

eləcə də Azərbaycanda uşaq mətbuatı və ədəbiyyatını inkişaf etdirmək idi. Bunu nəzərə alan maarif xadimləri uşaqlara məxsus mətbu orqanları yaratmaq məqsədilə bir neçə dəfə müvafiq orqanlara müraciətlər etmişdilər. İlk təşəbbüs isə Qoridəki Zaqafqaziya müəllimlər seminariyasının Azərbaycan şöbəsinin müfəttişliyinə təyin olunan Aleksey Osipoviç Çernyayevski tərəfindən göstərilmişdi. 1893-cü il iyun ayının 22-də A.O.Çernyayevski Peterburqa, Mətbuat İşləri üzrə Baş İdarəyə müraciət edərək, Azərbaycan dilində «Fikir» adlı həftəlik qəzet nəşr etmək arzusunda olduğunu bildirmişdir. Daxili işlər nazirinə avqustun 10-da göndərdiyi müraciətdə isə A.O.Çernyayevski qəzetin məqsədi haqda məlumat verir, əsasən siyasi, ictimai-ədəbi qəzet olacaq «Fikir»də gənc nəslin təlim-tərbiyəsi məsələlərinə də yer veriləcəyini qeyd etmişdir: «Uşaqların və gənclərin çoxunun təlim və tərbiyəsi hələ də əksər halda cahil və fanatik ruhanilərin himayəsindədir. Tədris idarəsinin ixtiyarında olan məktəblərin genişləndirilməsi yaxşı nəticə verə bilərdi. Lakin səmərəli pedaqoji əsaslar üzərində qurulmuş belə məktəblər hələ azdır, ona görə də qəzet bir çox sahələrdə – məktəb və xüsusilə ev tərbiyəsində uşaqlara kömək edə bilərdi».

Digər təşəbbüs isə Sultan Məcid Qənizadə və görkəmli ictimai xadim, ədib Nəriman Nərimanov tərəfindən 1896-cı ilin martında edildi. Onlar uşaqlar üçün «Sovqat» adlı şəkilli jurnalın nəşr edilməsi məqsədilə Bakı qubernatoruna rəsmi məktub yazmışdılar. Lakin onların bu xeyirxah təşəbbüsü nəticəsiz qalmışdı. Elə həmin ilin mayın 26-da S.M.Qənizadə və Həbibbəy Mahmudbəyov növbəti dəfə uşaqlar üçün jurnal çapına səy göstərirlər. S.M.Qənizadə və H.Mahmudbəyov Peterburqda daxili işlər nazirinə müraciət edərək «Nübar» adlı jurnal nəşr etməyə icazə istəmişlər. Müraciətdə göstərilirdi ki, «Nübar» jurnalı S.M.Qənizadənin redaktəsi ilə Bakıda çap olunacaq, Tiflisdə senzuradan keçəcəkdir. Bu jurnalın azərbaycanlılar üçün əhəmiyyətini qeyd etdikdən sonra naşirlər onun proqramını qısaca şərh edirdilər: «Onun (jurnalın) əsasını pedaqoji və ədəbi məzmunlu tərcümələr və orijinal məqalələr, rus və xarici həyatdan alınmış hekayələr, povestlər, romanlar, səyahətnamələr, memuarlar və dram əsərləri təşkil edəcəkdir». Jurnalın geniş yayılması üçün son səhifələrdə müxtəlif məktubların, redaksiya cavablarının, uşaq nağıllarının, təmsil və tapmacaların, rebusların da veriləcəyi qeyd edilirdi. Lakin naşirlərin bu təşəbbüsü də nəticəsiz qalmış, çar məmurları gənc müəllimlərin bu nəcib niyyətinin həyata keçməsinə icazə verməmişdilər. 1897-ci ildə yenidən S.M.Qənizadə «Cami-mərifət» adlı həftəlik qəzet buraxmağa cəhd göstərir. Amma bu dəfə də o, yazdığı xahişnaməyə müsbət cavab ala bilmir.

Daha sonra Bakı oğlan gimnaziyasında işləyən Nəriman Nərimanov 1900-cü il dekabr ayının 4-də «Məktəb» adlı aylıq elmi-pedaqoji jurnalın nəşri üçün Peterburqa, Mətbuat İşləri üzrə Baş İdarədə Qafqazın mətbuat üzrə rəisinə müraciət edir. «Məktəb»in nəşri üçün N.Nərimanovun yazdığı xahişnamədə qeyd olunurdu ki, yazıçı jurnalda xalq məktəbləri haqqında hökumət sərəncamları, pedaqoji xarakterli baş məqalələr, rus məktəbləri, o cümlədən, şəhər və kənd məktəblərindən xəbərlər, elmi mövzularda materiallar, məşhur pedaqoqların tərcümeyi-halına dair məlumatlar, pedaqoji

jurnallardan xülasələr və sair çap etməyi nəzərdə tutub. Jurnalın çapına icazə verilməsi xatirinə N.Nərimanov xahişnamədə bildirirdi: «Bunu da əlavə etməyi özümə borc bilirəm ki, mənim redaktorluğum ilə nəşri nəzərdə tutulan jurnal tatarlar (azərbaycanlılar) arasında rus dilinin yayılmasında lazımi fayda verəcəkdir. Rus dilinin öyrənilməsinin zəruriliyi fikrini mən öz əsərlərimdə daim irəli sürmüşəm, bunu Tiflis Senzura Komitəsi də təsdiq edə bilər». Təbii ki, N.Nərimanovun bu qeydi elmi-pedaqoji jurnalın çapına icazənin əldə olunması üçün bir vasitə idi. Bir neçə ay sonra N.Nərimanovun bu təşəbbüsünə hökumət dairələrindən təəssüfedici cavab gəlir. Qafqaz Senzura Komitəsinin N.Nərimanova göndərdiyi 17 iyun 1901-ci il tarixli məktubunda iddia edilirdi ki, guya Azərbaycan xalqının ictimai şüuru məhduddur, elmi-pedaqoji jurnal buraxmağa və onu oxumağa qüvvəsi yoxdur. Senzura Azərbaycanda artmaqda olan yeni üsul məktəblərini, güclü ziyalı dəstəsini nəzərə almayıb, dini məktəbləri və mollaları əsas qüvvə hesab edib yazırdı: «Zaqafqaziya müsəlmanlarının böyük əksəriyyəti üçün «Məktəb»in elmi məqalələri nəinki maraqsız, hətta anlaşılmaz olar... Məscid məktəblərində Qurandan şifahi dərs deyən mollalara gəldikdə isə çətin ki, onlar mühafizəkar işlərində cənab Nərimanovun öz orqanında yaymaq istədiyi təlim-tərbiyə əsaslarından istifadə etsinlər». Senzura belə bir jurnalın çarizmin siyasətinə toxunacağını və başqa səbəbləri bəhanə gətirərək «Məktəb»in nəşrinə icazə verməmişdi. Lakin bütün bunlara baxmayaraq, Azərbaycan ziyalılarının uşaq mətbu orqanı yaratmağa ciddi israrlıq nümayiş etdirməsi onların bu məqsədə yetişməsində xüsusi rol oynadı. Nəhayət, 1906-cı ilin ilk günlərində Bakı ikinci dərəcəli «rus-Azərbaycan» məktəbinin müdiri Məmmədhəsən Əfəndizadə həmin məktəbin müəllimi Əlisgəndər Cəfərzadə ilə birlikdə «Dəbistan» adlı jurnal çap edilməsi təşəbbüsünü reallaşdırmaq imkanı əldə etdi. Əvvəllər də Ə.Cəfərzadə «Dəbistan»ı nəşr etmək niyyətində olmuşdu. Lakin onun 1900-cü ildən başlanan cəhdləri 1906-cı ildə gerçəkləşdi. Əfəndizadə və Cəfərzadənin birlikdə yazdıqları ərizəyə əsasən Bakı general-qubernatoru 8 mart 1906-cı il tarixli xüsusi vəsiqə ilə icazə verir ki, onlar iki həftədən bir «Dəbistan» və ona əlavə olaraq aylıq «Valideynə məxsus vərəqə» nəşr etsinlər. Jurnal həmin ilin aprelindən çap olunmağa başladı. Bununla da, «Dəbistan» jurnalı Azərbaycanda uşaq mətbuatının təməl daşını qoydu. Maarifpərvər ziyalılar olan Ə.Cəfərzadə və M.Əfəndizadənin uzun müddət nəşrinə çalışdıqları «Dəbistan» jurnalının məramı yeniyetmələrin təlim və tərbiyəsinə, zehni inkişafına istiqamət vermək, onları xalqa və vətənə məhəbbət ruhunda tərbiyə etmək idi. Jurnal ilk nömrəsində məramını belə açıqlayırdı: «Uşaqlarımız məktəbdən azad olandan sonra asudə vaxtlarını uşaqlara məxsus jurnallarda və kitablarda ana dilində yazılmış ibrətamiz hekayələr və mənzumələr qiraətinə sərf edələr, təki elm və tərbiyəyə dair məktəblərdə öyrənilməsi mümkün olmayan əhvalatları böylə jurnallar və kitablar vasitəsilə öyrənsinlər».

«Dəbistan»ın işıq üzü görməsilə bağlı demokratik yazıçılar, maarifçilər müxtəlif mətbuat orqanlarında təbrik yazıları ilə çıxış edirdilər. Maarifçilər «Dəbistan»ın maarif və elmin, o cümlədən uşaq ədəbiyyatının inkişafına təkan verəcəyini də ifadə edirdilər. Dövrün qabaqcıl ziyalıları ilk uşaq

jurnalının fəaliyyətinə təkan vermək üçün valideynləri də bu demokratik addıma dəstək göstərməyə çağırırdılar. Bu münasibətlə N.Nərimanov «İrşad» qəzetində yazırdı: «Gözünüz aydın olsun, türk balaları, bu günədək şikayət edirdiniz, nə oxuyaq, qiraət üçün kitablarımız yoxdur. Şimdi Leyli-Məcnundan və qeyri vahimə gətirən nitqlərdən canınız qurtardı. Oxuyunuz şimdi «Dəbistan» jurnalını, məlumat axtaran, ana dilini sevən balalar. Oxuyunuz haman jurnalın «Valideynlərə məxsus vərəqəsi»ni, balalarını sevən atalar-analar. Bəli, dünən – aprelin 16-da «Dəbistan» jurnalının əvvəlinci nömrəsi çıxdı. Çox bir gözəl jurnal. Görünür, mühərrir əfəndilərimiz lazım olan səyi ediblər. Şimdi atalarımızın borcudur, şu jurnalı uşaqları üçün yazdırsınlar. Təbrik edirik, cavan qardaşımız «Dəbistan»ı. Uşaqlarımıza böyük xidmət göstərməyinizi gözləyirik».

«Dəbistan» özündən sonra digər bu məzmunda mətbu orqanlara da yol açdı. 1906-cı ildə görkəmli maarifçi Mahmudbəy Mahmudbəyovun redaktorluğu ilə «Rəhbər» jurnalı, 1911-ci ildə isə maarifpərvər jurnalist Qafur Rəşad Mirzəzadənin və Əbdürrəhman Tofiq Əfəndizadənin redaktorluğu ilə «Məktəb» jurnalı çap olunmağa başladı.

Beləliklə, hər üç jurnal Azərbaycanda milli uşaq mətbuatının təməlinə çevrilməklə, özündən sonra formalaşacaq pedaqoji-məktəb jurnallarının əsasını qoymaqla yanaşı, demokratik maarifçiliyin təbliğatında, Azərbaycan ədəbiyyatının inkişafında da öz xüsusi əhəmiyyətini göstərdi.

## ƏDƏBİYYAT


1. Zeynalov N. Azərbaycan mətbuatı tarixi. I cild. Bakı. – ADU nəşriyyatı, 1973.
2. Namazov Q. Azərbaycan uşaq ədəbiyyatı. Bakı – 1984.
3. M.Cəlal, Hüseynov F. XX əsr Azərbaycan ədəbiyyatı. Bakı – 1982.
4. Əzizov Ə. Uşaqların sevimliləri. Bakı – Gənclik, 1978.
5. Məmmədov Ə. Azərbaycan uşaq ədəbiyyatı («Dəbistan», «Məktəb», «Rəhbər» jurnalları). Bakı. – Elm, 1977.
6. «İrşad» qəzeti, 18 aprel 1906, №92.


## ДЕТСКАЯ НАЦИОНАЛЬНАЯ ПЕЧАТЬ В АЗЕРБАЙДЖАНЕ


**ЛАЛА П.ИСМАЙЛОВА**


## АННОТАЦИЯ


Создание в Азербайджане национальной печати в начале XX века открыла путь для развития детской национальной газет и журналов на родном языке. Привлечение внимания интеллигенции в этот период к развитию просвещения, культуры и науки в стране дало необходимость для издания таких детских журналов как «Dəbistan», «Rəhbər» и «Məktəb».